Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbənin 5-ci ildönümünə həsr olunur

UOT 94(479.24)

QABİL ƏLİYEV
tarix elmləri doktoru, professor
Bakı Dövlət Universiteti,
Azərbaycan Universiteti,
https://orcid.id/0000-0002-2372-5907
qabilalioglu1956@gmail.com

GÜCLÜ HAKİMİYYƏT GÜCLÜ DÖVLƏTÇİLİYİN ƏSAS ŞƏRTİDİR

DOI: https://doi.org/10.36719/2708-065X/110/9-15

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı sərəncam Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə malik olan iki önəmli hadisə - Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və dövlət suverenliyinin bərpasının 5-ci ildönümü ilə bilavasitə bağlıdır. Təqdim edilmiş məqalədə bu sərəncamın gənc nəsil tərəfindən milli suverenliyimizin və hüquqi dəyərlərimizin əhəmiyyətinin yetərincə anlaşılması və bütövlükdə bu dəyərlərin təbliği baxımından vaxtında atılmış önəmli bir addım kimi şərh edilmişdir. 2025-ci il ərzində bu qərardan irəli gələn vəzifələrin müxtəlif dövlət strukturları tərəfindən icra edilməsinin, həyata keçirilən genişmiqyaslı islahatların geniş xalq kütlələrinə çatdırılmasının, mətbuatda və elektron informasiya vasitələrində analitik təhlillər aparılmasının Azərbaycan Respublikasının hüquqi dövlət quruculuğu yolunda irəliləməsinə əlverişli zəmin yaradacağına inam ifadə edilmişdir.

Açar sözlər: Konstitusiya, dövlətçilik, suverenlik, hakimiyyət, prezident, hüquqi sistem, milli dəyərlər.

Giriş. 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı son dərəcə anlamlı və qanunauyğundur. Çünki, məhz 2025-ci ildə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu, həmçinin 44 günlük Vətən müharibəsində qazanılmış böyük zəfər nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində ərazi bütövlüyünün bərpa olunmasının 5-ci ildönümüdür. 2023-cü il sentyabrın 19-20-də Yuxarı Qarabağda həyata keçirilmiş uğurlu antiterror əməliyyatındakı parlaq qələbə sayəsində isə Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi bütün ərazilərimizdə bərqərar olmuş, suverenliyimiz tam şəkildə təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si gününün Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilməsi [2] də, bu reallıqların nəzərə çarpdırılması baxımından xüsusilə qiymətlidir.

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncam dövlətçilik ənənələrinin gücləndirilməsi, hüquqi dövlət quruculuğunun təkmilləşdirilməsi, Azərbaycan Respublikasının güclü mərkəzi hakimiyyətinin əsasını təşkil edən konstitusiya prinsiplərinin qorunması, inkişaf etdirilməsi, təbliği, suverenliyin müdafiə olunması və möhkəmləndirilməsi istiqamətində atılan çox əhəmiyyətli addımlardan biridir.

Konstitusiya və suverenlik. Konstitusiya və suverenlik anlayışları müasir dövlət quruculuğunun çox mühüm, ayrılmaz dəyərləri kimi qəbul edilir. ***Konstitusiya*** ölkənin əsas qanunu, onun siyasi, iqti-

sadi və hüquqi sistemlərinin əsaslarını təsbit edən, həmçinin vətəndaşların hüquq və azadlıqlarını, vəzifələrini, həmçinin dövlət hakimiyyəti strukturları ilə vətəndaşların qarşılıqlı münasibətlərini tənzimləyən ali hüquqi qüvvəyə malik sənəddir. Mərkəzi dövlət hakimiyyəti orqanlarının formalaşdırılması və fəaliyyət göstərməsi qaydalarını, onların səlahiyyətlərini və şəxsiyyətin cəmiyyətdəki mövqeyinin prinsiplərini tənzim edən ən yüksək hüquqi qüvvəyə malik təsis aktıdır.

Suverenlik anlayışı xalqın öz müqəddəratını təyinetmə hüququnu, bütün ölkə miqyasında öz ərazisini idarə etmək qabiliyyətini, dövlət hakimiyyətinin bərqərar olmasını və onun xarici siyasətdə müstəqilliyini: dövlətin xarici hakimiyyətə, kənar qüvvələrə tabe olmadan, onların təsirinə düşmədən, müstəqil qərarlar qəbul etmək qabiliyyətini, beynəlxalq müstəvidə bərabərhüquqlu subyekt kimi təmsil olunmasını ifadə edir. Bu, dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və milli maraqlarının birliyini təmin edən fundamental xüsusiyyətdir.

Dövlət müstəqilliyi və suverenlik hər bir xalqın, millətin sahib olmağa can atdığı çox dəyərli nailyyətlərdir. Bütün xalqların və millətlərin müstəqil dövlətçilik tarixi və suveren inkişaf yolu məhz onların malik olduqları dövlətçilik ənənələrinə, azadlıq ideallarına, milli-mənəvi xüsusiyyətlərinə, tarixi ənənələrinə və intellektual səviyyəsinə uyğun olaraq qazanılır və inkişaf etdirilir. Bütün bu göstəricilərə görə çox böyük potensiala malik olan Azərbaycan xalqı 5 minillik dövlətçilik tarixində dəfələrlə öz müstəqilliyini yadelli işğalçılardan igidliklə qorumuş, müxtəlif obyektiv və subyektiv səbəblərdən əsarət altına düşdükdə isə, yenidən azadlığa qovuşmaq uğrunda yorulmadan, usanmadan mübarizə aparmış, qəhrəman oğullar, müdrik sərkərdələr, dövlət xadimləri yetişdirmişdir.

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında çox haqlı olaraq qeyd edilmişdir ki, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmışdır [1].

Xalqımız XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində, Sovet İttifaqının dağılması dövründə öz müstəqilliyini – dövlət suverenliyini bərpa etmək üçün çox mühüm, taleyüklü addımlar atdı. İnsanlarımızın suverenlik arzusu-istəyi və müstəqil yaşamağa can atması, 1918-ci ildə qurulmuş və cəmi iki il yaşamış Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin, eləcə də minilliklər boyu davam etmiş dövlətçilik tariximizin ənənələrinə əsaslanırdı. Xalq Cümhuriyyətinin qurucuları çox qısa müddət ərzində müstəqil dövlətə xas olan bütün təsisatlarını: parlamenti, hökuməti, milli ordusunu, maliyyə sistemini yarada bilmişdilər. AXC bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla normal diplomatik əlaqələr yaradılmışdı.

Lakin 1920-ci il aprelin 27-28-də Sovet Rusiyası beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən XI Qırmızı Ordusunu Azərbaycana yeritdi, suveren Azərbaycan ərazisini işğal etdi. Qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devrildi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqil dövlətçilik məhv edildi. Sovet Rusiyasının işğalçılıq siyasəti nəticəsində müstəqil cümhuriyyətimiz süqut etdi, sonrakı 70 ilə yaxın müddət ərzində Sovet İttifaqının tərkibində qaldı. Lakin Azərbaycan xalqı öz müstəqillik ideallarından heç zaman vaz keçmədi və hər fürsətdə bu arzusunu gerçəkləşdirməyə səy göstərdi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan rəsmən müstəqil dövlət statusunu bərpa etdi. Bu çox önəmli tarixi nailiyyət idi. Lakin müstəqilliyin bərpasından sonrakı ilk dövrdə respublikamız çox ciddi ictimai-siyasi və iqtisadi böhran keçirirdi. Respublika rəhbərlərinin tez-tez dəyişdirilməsi, bazar iqtisadiyyatına keçidin doğurduğu saysız-hesabsız çətinliklər, iqtisadi tənəzzülün dərinləşməsi ümumi vəziyyəti daha da ağırlaşdırmışdı. Ermənistanın xarici havadarlarının hərtərəfli yardımları ilə ölkəmizə hərbi təcavüzü, torpaqlarımızın 20 faizinin işğal edilməsi, 1 milyondan çox insanımızın qaçqın və məcburi köçkünə çevrilməsi, daxili ictimai-siyasi sabitliyi pozmuş, idarəetməni iflic vəziyyətə salmış, Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə və təhdidlər yaratmışdı.

Doğrudur, Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulmuşdu [3]. Lakin 1991–1993-cü illərdə hakimiyyət təmsilçilərinin səriştəsizliyi, ayrı-ayrı qurumların yarıtmaz fəaliyyəti, qanunsuz silahlı dəstələrin özbaşınalığı, hakimiyyət uğrunda zorakılığa söykənən mübarizə, vahid siyasi iradənin olmaması cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın baş alıb getməsinə gətirib çıxarmışdı. Bu illərdə dövlət idarəçiliyi mexanizmləri lazımı şəkildə formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdı. Azərbaycan vətəndaş müharibəsi astanasına sürüklənmiş, yenicə bərpa edilmiş milli dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzbəüz qalmışdı.

Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ilin yayında xalqımızın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı, Azərbaycanın müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunmasına imkan verdi və ölkəmizin suveren dövlət kimi formalaşmasına şərait yaratdı. Böyük dövlət idarəçiliyi təcrübəsinə malik və dünya siyasətindəki konyukturanın incəliklərinə dərindən bələd olan bu dahi şəxsiyyətin əsasını qoyub uğurla həyata keçirdiyi siyasi kurs nəticəsində Azərbaycan beynəlxalq səviyyədə təcrid olunmaqdan qurtuldu. Respublikamız etibarlı tərəfdaş kimi qəbul edilməyə başlandı, yaxın və uzaq qonşuları ilə münasibətlər tədricən sahmana salındı, beynəlxalq və regional təşkilatlarla əlaqələr möhkəmləndirildi.

Ulu öndərin başçılığı ilə ardıcıl şəkildə yürüdülən məqsədyönlü siyasət nəticəsində, cəmiyyətimizdə qanunlara hörmət tədricən həyat normasına çevrilərək öz bəhrəsini verməyə başladı. Bütün bunlar Azərbaycan xalqının və dövlətinin tarixində ilk milli Konstitusiyanın qəbul edilməsi üçün gərəkli ictimai-siyasi şəraitin yaradılması ilə nəticələndi. Ən əsası isə ölkədə siyasi sabitlik təmin edildi, bir-birinin ardınca sürəkli şəkildə hüquqi və iqtisadi islahatlar aparıldı, hüquqi dövlət quruculuğu yolunda çox mühüm addımlar atıldı – müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu üçün hazırlıqlara başlandı.

Yeni konstitusiyanın yaradılması ideyasının irəli sürülməsində, onun layihəsinin hazırlanmasında və qəbulunda ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadiminin hakimiyyətə qayıdışından sonra Konstitusiyanın qəbul edilməsi ön plana çəkildi. 1995-ci il mayın 2-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq olundu. Komissiyanın tərkibinə tanınmış ictimai-siyasi xadimlər, alimlər, peşəkar hüquqşünaslar daxil edildilər. Komissiyanın sədri isə Heydər Əliyev seçildi. Məhz onun gərgin əməyi və bilavasitə rəhbərliyi sayəsində Dövlətimizin müstəqillik tarixinin ən mühüm sənədi olan Əsas Qanun hazırlandı. Ulu öndər Konstitusiya komissiyasının 1995-ci il noyabrın 10-da keçirilən sonuncu iclasında qürurla qeyd etmişdi ki, "tarixi bir iş görülübdür. Tarixi bir sənəd yaradılıbdır. Bu gün biz ölkəmizin bütün ictimaiyyəti qarşısında, dünya ictimaiyyəti qarşısında deyə bilərik ki, Azərbaycan Respublikasının, xalqımızın tarixində ilk demokratik konstitusiya yaranmasında biz bilavasitə iştirak etmişik və bu layihənin yaranması bizim hamımızın birlikdə məhsuldar əməyimizin, fəaliyyətimizin nəticəsidir" [4, s.472].

1995-ci il noyabrın 12-də ümumxalq referendumu vasitəsilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir demokratik cəmiyyətin, hüquqi dövlətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilmişdir [4]. Azərbaycanın bu yeni qəbul edilmiş konstitusiyası xalqımızın keçdiyi böyük tarixi yolun məntiqi yekunu olmaqla, sayca dördüncü konstitusiyası idi. 1921-ci ildə birinci konstitusiya, 1937-ci ildə ikinci konstitusiya, 1978-ci ildə üçüncü konstitusiya qəbul edilmişdi. Ulu öndər fəxrlə bildirmişdi ki, bu yeni konstitusiya "keçmiş konstitusiyalardan tamamilə fərqli konstitusiyadır, yeni konstitusiyadır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır, Azərbaycanın hər bir vətəndaşının doğma konstitusiyasıdır" [5, s.5].

Yeni konstitusiyamızda dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər fundamental dəyərlər öz əksini tapmışdır. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyətini əsas götürərən ulu öndər Heydər Əliyevin imzaladığı 1 noyabr 1996-cı il tarixli fərmana əsasən, o zamandan bəri hər il ölkəmizdə noyabrın 12-si Konstitusiya Günü kimi rəsmən qeyd edilməkdədir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilmişdir. Bu, ölkənin ilk müstəqil konstitusiyası olmaqla, onun demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmasını təmin edən əsas qanundur. Azərbaycan Respublikasının Konstitusiyası – dövlətin əsas qanunu olaraq – hüquqi sistemin təməlini təşkil edir. Belə ki, konstitusiyada qanunun aliliyi təsbit edilmiş, insan və vətəndaşlara geniş hüquq və azadlıqlar verilmişdir. Konstitusiyamızda Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü əsas prinsiplərdən biri kimi əks olunmuşdur. Bu sənəd ölkədə hüquq sisteminin təməlini qoymuş və Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun inkişafını təmin etmişdir. Elə buna görə də, 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi Azərbaycan Respublikasında dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, hüquqi sistemin daha da təkmilləşdirilməsi, ölkənin müstəqilliyinin müdafiə olunması yolunda qazandığımız uğurları vurğulamaq məqsədini daşıyır.

Ulu Öndərin hər bir Azərbaycan vətəndaşına, xüsusən gənclərimizə aşağıdakı tövsiyəsi ibrətamizdir: "Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir" [6, s.34].

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə olunubdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu nailiyyətlərin davam etdirilməsi və konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilibdir. Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar ümumxalq səsverməsi (referendum) yolu ilə 2002-ci il avqustun 24-də Konstitusiyanın 24 maddəsinə, 2009-cu il martın 18-də 25 maddəsinə, 2016-cı il sentyabrın 26-da isə 29 maddəsinə əlavə və dəyişikliklər edilmişdir.

Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsi, həmçinin prezident hakimiyyətinin möhkəmləndirilməsi zərurətindən irəli gəlmişdir [8]. Prezident İlham Əliyevin təşəbbüsü ikinci və üçüncü dəfə keçirilmiş referendumlarda Konstitusiyamıza edimiş əlavə və dəyişikliklər bu baxımdan xüsusilə diqqətəlayiqdir. Konstitusiyaya edilmiş son əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlmişdir. Beləliklə, Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılmışdır.

Güclü prezident hakimiyyəti. Müasir dövrdə dünya miqyasında prezidentli respublika, parlamentli respublika, konstitusiyalı monarxiya və s. kimi müxtəlif dövlət idarəçiliyi formaları mövcuddur. Bu idarəetmə orqanlarını birləşdirən əsas ümumi cəhətlərdən biri icraedici hakimiyyətin fəaliyyət göstərməsidir. Lakin icra hakimiyyəti başçısının – prezidentin, baş nazirin, monarxın səlahiyyətləri hər bir ölkənin konstitusiyasında fərqli miqyasdadır. Prezidentli respublikalarda da icraedici hakimiyyətlə qanunverici hakimiyyət arasında səlahiyyətlər bölgüsü məsələsində fərqli yanaşmalar mövcuddur. Konstitusiyalarda hakimiyyətin qolları arasında səlahiyyətlərin bölünməsi dövlət hakimiyyətinin bölüşdürülməsi prinsipinə qəti şəkildə əsaslanır və hər bir qol öz səlahiyyətləri çərçivəsində müstəqil fəaliyyət göstərir.

İcra hakimiyyəti başçısının geniş səlahiyyətlərə malik olması, ilk növbədə milli dövlət mənafeyi ilə bağlı məsələlərin qətiyyətli və operativ şəkildə həll edilməsi baxımından son dərəcə vacibdir. Çünki, icra hakimiyyətinin təşkilində kollegial orqan vasitəsilə idarəetmədə, həmin orqan daxilində hər hansı məsələnin həlli ilə bağlı fikir müxtəlifliyinin – plüralizmin olması labüddür. Milli mənafe, dövlət mənafeyi ilə bağlı problemlərin müzakirəsi və qərar qəbul edilməsi zamanı ayrı-ayrı səlahiyyətli şəxslərin subyektiv mövqeyi, fərqli yanaşması təbiidir. Belə olan halda isə konsesus əldə edilməsi vaxt itkisinə səbəb olur ki, bu da ali dövlət mənafeyi üçün vacib olan qərarın qəbulunu ləngidə, həmin mənafeyi doğuran müqəddəm şərtlərin dəyişməsinə gətirib çıxara bilir.

Ona görə də, icra hakimiyyəti qanunverici və məhkəmə hakimiyyəti ilə müqayisədə daha çox dinamizmə malik olmalıdır [9, s.33]. Bu baxımdan, Azərbaycan Respublikası Konstitusiyasında icra hakimiyyətinin təşkilində təkbaçşılıq prinsipi – geniş səlahiyyətlərə malik prezident idarəçiliyi tətbiq edilməsi böyük əhəmiyyətə malikdir. Azərbaycan Respublikası Konstitusiyasına görə, dövlətimizin

idarəetmə forması prezident respublikasıdır. Prezident hakimiyyətinin statusu, səlahiyyətləri barədə Konstitusiyanın ən mühüm siyasi-hüquqi müddəaları aşağıdakılardır:

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir, dövlətin Silahlı Qüvvələrinin Ali baş komandanıdır. Prezident hakimiyyəti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və hakimiyyətin varisliyi prinsipini təmin edir. Prezident Azərbaycan dövlətinin müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısıdır. Prezident həmçinin hakimiyyətin icraedici qolunun başçısı kimi, dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasına təminatçısıdır Dövlətin başçısı həm də məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır [4, s.6]. Konstitusiyada dövlət başçısının geniş səlahiyyətləri təsbit olunmuşdur. Bu səlahiyyətlər 109-cu maddənin 32 bəndində əks olunmuşdur [4, s. 37-39].

Konstitusiyamıza görə, müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə, Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır [4, s.34].

Azərbaycan Respublikası Konstitusiyasında əks olunmuş, əlavə və dəyişikliklərlə daha da inkişaf etdirilmiş güclü prezident hakimiyyəti ölkəmizin XXI əsrin ilk onilliklərində, xüsusən də son beş il ərzində qazandığı böyük uğurlara möhkəm hüquqi zəmin yaratmışdır. Bu, qonşu Gürcüstan və Ermənistan respubliklarında son onilliklərdə həyata keçirilən prezident hakimiyyətini məhdudlaşdıran, əvəzində parlamentin və parlament qarşısında məsuliyyət daşıyan hökumətin səlahiyyətini genişləndirən islahatlar fonunda daha qabarıq nəzərə çarpır. Hər iki qonşu respublikada XXI əsrin ikinci onilliyində konstitusiyalara edilən əlavə və dəyişikliklər nəticəsində prezidentin səlahiyyətləri əsaslı çəkildə məhdudlaşdırılmış, hökumətin prezident qarşısında deyil, parlament qarşısında məsuliyyət daşıması qaydası qüvvəyə münmişdir. Bu islahatlara görə, həmin respublikalarda prezident öz mandatını bilavasitə xalqdan almır və özünü birbaşa vətəndaşlar tərəfindən seçilmiş parlamentə qarşı qoya bilmir. Bu da, öz növbəsində, qanunverici orqanın – parlamentin icraedici hakimiyyətdən üstünlüyünə, hökumətin parlamentin nəzarəti altına düşməsinə gətirib çıxarmışdır. Nəticədə, artıq yuxarıda qeyd edildiyi kimi, sürətli qərar qəbul ediməsində ləngimələr və daha pisi, hökumətin tərkibində mütamadi dəyişikliklər, icra hakimiyyəti strukturlarının ardıcıl səmərəli fəaliyyət göstərməsində axsamalar baş verməkdədir.

Nəticə. 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətçilik tariximizin öyrənilməsi və təbliğ edilməsi, həmçinin postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin müəyyən edilməsi və əhəmiyyətinin üzə çıxarılması, Qafqazın lider dövlətinə çevrilmiş olan Azərbaycan Respublikasının dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini ön plana çıxarmaq baxımından əvəzsiz rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycanın hüquqi dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlıqlarının təmin olunmasına dair öhdəlikləri daha geniş miqyasda nəzərə çarpdırmaq məqsədinə xidmət edir. Bu qərar, həmçinin gənc nəsil tərəfindən milli suverenliyimizin və hüquqi dəyərlərimizin qiymətinin yetərincə anlaşılması və bütövlükdə bu dəyərlərin təbliği baxımından vaxtında atılmış önəmli bir addımdır. 2025-ci il ərzində bu qərardan irəli gələn vəzifələrin müxtəlif dövlət strukturları tərəfindən icra edilməsi, mətbuatda və elektron informasiya vasitələrində analitik təhlillər aparılması, həyata keçirilən genişmiqyaslı islahatların geniş xalq kütlələrinə çatdırılması Azərbaycan Respublikasının hüquqi dövlət quruculuğu yolunda irəliləməsinə əlverişli zəmin yaradacaqdır.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, bu iki mühüm dəyərin əhəmiyyətini vurğulamaqla, Azərbaycan Respublikasının gələcəyə doğru inamlı inkişafına və milli kimliyinin daha da möhkəmləndirilməsinə mühüm töhfə verməklə yanaşı, ölkəmizin müstəqillik tarixində əldə etdiyi böyük uğurların doğru-düzgün qiymətləndirilməsinə, eləcə də gələcək perspektivlərin müəyyənləşdirilməsinə imkan yaradacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/az/articles/view/67775 -28 dekabr 2024 [29.09.2025].

2. Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamı // https://e-qanun.az/framework/57986 [14.09.2025].
3. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı, 32-ci maddə // https://anl.az/el/emb/Konstitusiya_suverenlik/pdf/6693.pdf [12.09.2025
4. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Hüquq yayım evi, 2025, 64 s. // https://ebooks.az/az/book/8oSpCs1 [12.09.2025].
5. Əliyev H.Ə. Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxış. Prezident Sarayı. 10 noyabr 1995-ci il // Müstəqilliyimiz əbədidir. 4-cü kitab, Bakı, Azərnəşr, 1997, s.471-498.
6. Əliyev H.Ə. Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitq. 24 noyabr 1995-ci il // Müstəqilliyimiz əbədidir. 5-ci kitab, Bakı, Azərnəşr, 1998, s.5-17.
7. Əliyev H.Ə. 12 noyabr - Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrik. 11 noyabr 1996-cı il // Müstəqilliyimiz əbədidir. 8-ci kitab, Bakı, Azərnəşr, 1998, s.5-17.
8. Osmanov T. Konstitusiya və Suverenlik ili: Azərbaycanın hüquqi və dövlətçilik inkişafı // https://genprosecutor.gov.az/az/page/ [12.09.2025].
9. Rzayeva P.A. Prezidentli respublika idarəetmə formasının digər idarəetmə formalarından fərqli xüsusiyyətləri // "Qanun", № 6 (260), 2016, s.32-37 - https://www.elibrary.az/docs/jurnal/jrn2016_348.pdf [12.09.2025].

ГАБИЛЬ АЛИЕВ
доктор исторических наук, профессор
Бакинский Государственный Университет,
Азербайджанский Университет

УКРЕПЛЕНИЕ ВЛАСТИ – ГЛАВНОЕ УСЛОВИЕ СИЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ

Указ Президента Азербайджанской Республики Ильхама Алиева об объявлении 2025 года «Годом Конституции и Суверенитета» в Азербайджанской Республике напрямую связан с двумя важными событиями в истории азербайджанской государственности – 30-летием принятия Конституции Азербайджанской Республики и 5-летием восстановления государственного суверенитета. В представленной статье данный указ интерпретируется как важный и своевременный шаг в деле обеспечения полного понимания молодым поколением важности нашего национального суверенитета и правовых ценностей, а также в целях их всестороннего продвижения. Предполагается, что реализация задач, вытекающих из данного решения, различными государственными структурами в течение 2025 года, проведение аналитических исследований в прессе и электронных СМИ, а также доведение информации о проведенных масштабных реформ до широких масс населения создадут благоприятную основу для продвижения Азербайджанской Республики по пути правового государственного строительства.

Ключевые слова: Конституция, государственность, суверенитет, власть, президент, правовая система, национальные ценности.

GABIL ALIYEV
Doctor of Historical Sciences, Professor
Baku State University,
Azerbaijan University

STRENGTHENING AUTHORITY IS THE MAIN CONDITION FOR A STRONG STATE

The Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev on declaring 2025 the "Year of Constitution and Sovereignty" in the Republic of Azerbaijan is directly related to two important events in the history of Azerbaijani statehood - the 30th anniversary of the adoption of the Constitution of the Republic of Azerbaijan and the 5th anniversary of the restoration of state sovereignty.

In the presented article, this decree is interpreted as an important and timely step in ensuring that the younger generation fully understands the importance of our national sovereignty and legal values, as well as for their comprehensive promotion. It is assumed that the implementation of the tasks arising from this decision by various government agencies during 2025, conducting analytical studies in the press and electronic media, as well as disseminating information about the large-scale reforms carried out to the general public will create a favorable basis for the advancement of the Republic of Azerbaijan along the path of legal state building.

Keywords: Constitution, statehood, sovereignty, legal system, power, president, national values.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilir.